

*Sadiq Buzovnalı*

# AĞLAMAZ KİŞİLƏR

Ağlamaz kişilər, deyirlər belə,
Atalar sözüdür yayılıb elə.
Ağlasa kişilər qopar qiyamət,
Qalmaz mərdliyindən onda əlamət.
Ağlasa kişilər sönər kainat,
Ağlasa kişilər məhv olar həyat.
Kişilər dayanar mərdi-mərdana,
Əllərində silah girər meydana.
Ağlayar qadınlar, tökər göz yaşı,
Getsə yan-yörəsi, qohum-qardaşı.
Ağlayar qadınlar, gəzər başaşağı,
Naxələf çıxarsa oğul-uşağı.
Ağladı kişilər göz yaşı tökdü,
Aləmə sanki, bir qaranlıq çökdü.
Körpələr də beşikdə zəlil oldu,
Ölən öldü, qalanlar əlil oldu.
Cəbrayıl etmədi kömək bizlərə,
Ahımız yayıldı bütün düzlərə.
Füzuli göz yaşı töküb ağladı.
Millətin üzünə qapı bağladı.
Şuşa qalasında bayquş uladı,
Kəlbəcər dağında it yal yaladı.
Tərlan yuvasını duman-qar aldı,
Laçının dərdindən qəlbi daraldı.
Ağdamın damına örtdülər qara,
Köksün parçalayıb vurdular yara.
Qubadlı, Zəngilan od tutub yandı.
Həyatın məhvəri sanki dayandı.
Xocalı naləsi göyə ucaldı,
De, ondan bizlərə, söylə, nə qaldı?!
Möhtəşəm saraylar, qalalar hanı?
Uçulub onların indi eyvanı.
Daşından-kəsəkdən əsər qalmayıb,
Sanki bunlar əvvəldən heç olmayıb.
Vaxt var idi cavanlar at çapardı,
Bir-birindən onlar papaq qapardı.
Gözəllər yığnağı bulaqlar idi,
Fala çıxan gizli qulaqlar idi.
Atırdılar oğlanlara almanı,
Dövrə vurub tuturdular hər yanı.
İndi o yerlərdə ulayır bayquş,
Əl-ayaq çəkilib, yox olub tay-tuş.
İnanın, inanın, inanın, dostlar,
Mənim sözlərimdə bir həqiqət var!
Azadlıq günəşi mütləq doğacaq,
İşıq qaranlığı geç-tez boğacaq!
İnanın, inanın, o gün gələcək,
Bizimdir xoş günlər, o xoş gələcək!
O günü elim tezliklə görəcək,
Xoş günlərini də orda sürəcək!

***

Çalınmış, çalınacaq tarım, kamanım mənim,
Yaşamış, yaşayacaq gözəl muğamım mənim.
Qarabağ oylagında, Turşsu, Cıdır süzündə,
Avazla oxuyacaq Seyyidim, Xanım mənim.